# Cəlilabadda "Heydər Əliyev İli" ilə bağlı bilik yarışı

**Cəlilabad rayon Heydər Əliyev Mərkəzində rayon Gənclər və İdman İdarəsi və Masallı Regional Mədəniyyət İdarəsinin və Cəlilabad rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev ili"nə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə rayon çempionatı keçirilib. İlk öncə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib.**



Çıxış edənlər yarışın Azərbaycan xalqının ümummilli liderinin həyat və fəaliyyətinin öyrənilməsi, ulu öndərin irsinin yaşadılması və yeni nəsil arasında təbliği, eyni zamanda, gənclərin elmə, maarifləndirici yarışlara marağının artırılması məqsədi daşıdığını qeyd ediblər.

Rayon çempionatında gənclərdən ibarət 8 komanda – Mədəniyyət nümayəndəliyi, Dövlət Peşə Təhsil Mərkəzinin tələbə və müəllimlərindən ibarət “Zəfər yolu” və “Dəmir yumruq” adlı iki komandası, ADPU Cəlilabad filialının TGT qrupu iştirak edib. Gərgin mübarizə şəraitində keçən çempionatda “Trust” komandası I yerə, “Öndər” komandası II yerə və ”Uğur” komandası isə III yerə layiq görülüblər.

Qaliblər diplom və kubokla mükafatlandırılıblar.

***Ə.ƏLİYEV, “Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 31 yanvar.- S.4.